2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına 635580 min manat həcmində investisiyadan istifadə edilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,8 faiz artaraq 594228 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş investisiyanın 93,5 faizini təşkil edir.

2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikada tikinti sahəsində 11891 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 4,3 faiz artaraq 471,4 manat olmuşdur.